

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 138 (23.049)

*25 iyul 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində 2018-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclasını giriş sözü ilə gənclər və idman naziri Azad Cabbarov açaraq məruzə ilə çıxış edib.***

Bildirilib ki, nazirlik 2018-ci ilin ilk altı ayı ərzində öz fəaliyyətini təsdiq olunmuş iş planına və 14 yanvar 2017-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə verilmiş tapşırıqlara əsasən qurub. Ötən dövr ərzində nazirliyin keçirdiyi 298 tədbirdən 123-ü gənclərlə iş, 175-i isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edib.

Nazir vurğulayıb ki, Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar gənclərin qış və yay məktəbləri təşkil olunub, yeniyetmə, gənclər, əcnəbi tələbələr və gənc müəllimlər arasında intellektual oyunlar, bilik yarışmaları keçirilib, gənclər arasında “Naxçıvan Gənclər Paytaxtıdır” adlı fotomüsabiqə təşkil olunub, şəhər və rayonlarda “Gənclər bağı” salınıb. Bununla yanaşı, “Azərbaycançılıq və gənclik” adlı təbliğat kampaniyası çərçivəsində konfrans keçirilib, konsert proqramları təşkil edilib. Bakı şəhərində gənclər arasında keçirilən “Xəmsə” Milli İntellektual Oyununun X Azərbaycan çempionatında muxtar respublikanı təmsil edən komandaların iştirakı təmin olunub. “22 aprel – Beynəlxaq Yer Kürəsi Günü” ilə əlaqədar muxtar respublikanın ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin və gənclərin iştirakı ilə “Gənclər bağı”nda təmizlik aksiyası keçirilib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar gənclərin “Qurtuluşdan Əlincəqalaya” devizi altında yürüşü və digər tədbirlər təşkil olunub.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin birinci yarımilində idmançılarımız ölkə birinciliklərində 79, beynəlxalq turnirlərdə 70, dünya çempionatında 2, Avropa çempionatında 1 olmaqla, ümumilikdə, 152 medal qazanıblar. Həmçinin Gənclər və İdman Nazirliyi tərəfindən gənclərin məşğulluğunun təmin edilməsi məqsədilə vakant iş yerləri haqqında məlumatlar internet resurslarında paylaşılıb, bununla əlaqədar müraciət etmiş 8 gənc müvafiq işlə təmin edilib, 19-u işlə təmin olunmaq, 8-i isə peşə ixtisası kurslarında iştirak etmək üçün qeydiyyata alınıb.

Bildirilib ki, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Naxçıvan – 2018” Beynəlxalq Şahmat Festivalı, Naxçıvan Muxtar Respublika Stadionunda futbol üzrə “Heydər Əliyev kuboku” uğrunda turnir, kikboksinq və cüdo üzrə beynəlxalq turnirlər keçirilib. Eyni zamanda ulu öndərin anadan olmasının 95 illiyi ilə əlaqədar yeniyetmə və gənclər arasında boks, karate-do, kikboksinq, sərbəst güləş, kişilər arasında voleybol, basketbol, 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında Əyləncəli İdman Oyunları üzrə Naxçıvan Muxtar Respublika turnirləri, Üzgüçülük Mərkəzində yerləşən “Əlincə” Stolüstü Tennis İdman Klubunun məşq zalında stolüstü tennis üzrə muxtar respublika birinciliyi təşkil edilib.

Kollegiya iclası çıxışlarla davam edib.



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş sərəncamların icrası istiqamətində 2018-ci ilin birinci yarısında da müvafiq tədbirlər görülüb.

Bu barədə kollegiya iclasında məlumat verən komitənin sədri Vaqif Rəsulov bildirib ki, komitə tərəfindən muxtar respublikada sosial-iqtisadi inkişafla bağlı görülmüş işlər və nəticələr haqqında cari ilin ilk altı ayı ərzində, ümumilikdə, 17 adda, o cümlədən 11 təhlili material hazırlanıb.

Vurğulanıb ki, statistika idarələri ilə birlikdə 7068 təsərrüfat subyektindən 25 min 147 sayda hesabat yığılaraq onlayn rejimdə təqdim olunub. Bundan əlavə, cari ilin ötən dövrü ərzində muxtar respublikanın inzibati ərazi dairələrində 99 min 279 təsərrüfat subyektinə dair göstəricilərin aktuallaşdırılması da təmin edilib.

Komitə sədri diqqətə çatdırıb ki, iş planına uyğun olaraq ötən dövr ərzində statistik vahidlərin dövlət reyestrində qeydiyyatda olan 1920 təsərrüfat subyekti göstəricilərinin aktuallaşdırılması nəzərdə tutulmuş vaxtda başa çatdırılıb, reyestrdə qeydiyyatda olan bütün müəssisələrlə əlaqə yaradılaraq müvafiq göstəricilər dəqiqləşdirilib. Bu dövr ərzində hesabat intizamına cəlb olunmayan hüquqi şəxs qalmayıb.

Naxçıvan Muxtar Respublikası üzrə müvafiq məlumatlar hazırlanıb, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən rüblük dövrdə buraxılan “Regionların sosial-iqtisadi inkişafı” və “Yeni iş yerləri” statistik məcmuələrində çap olunub.

Çıxışda qeyd olunub ki, cari ilin birinci yarısında dövri olaraq sosial-iqtisadi inkişafa dair aylıq məruzələr hazırlanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə, Nazirlər Kabinetinə və digər aidiyyəti orqanlara təqdim olunub.

Cari ilin ilk 6 ayı ərzində komitəyə 323 müxtəlifməzmunlu sənəd daxil olub və icrası vaxtında təmin edilib. Bundan əlavə, komitənin elektron poçt ünvanlarına və elektron sənəd dövriyyəsinə daxil olan kollegiya qərarları işə alınıb, digər məktublar isə qanunvericiliklə nəzərdə tutulmuş vaxtda cavablandırılıb.

2018-ci ilin ötən dövrü ərzində muxtar respublikanın sosial-iqtisadi vəziyyətini əks etdirən kompleks materiallar kütləvi informasiya vasitələrində də öz əksini tapıb.

Vaqif Rəsulov komitənin fəaliyyətinin bundan sonra da günün tələbləri səviyyəsində qurulması, statistika işinin təkmilləşdirilməsi sahəsində tədbirlərin davam etdirilməsi, təhlili materialların hazırlanaraq kütləvi informasiya vasitələrində verilməsi, inzibati ərazi dairələrində fəaliyyət göstərən statistika işçilərinin peşə hazırlığının diqqətdə saxlanılması ilə bağlı tapşırıqlar verib.

Sonda məruzələrlə bağlı müzakirələr aparılıb.

* * *

Muxtar respublikanın Dövlət Energetika Xidmətində keçirilmiş kollegiya iclasında xidmətin rəisi Namiq Paşayev çıxış edərək bildirib ki, 2018-ci ilin birinci yarısında da muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması diqqətdə saxlanılıb. Belə ki, layihə gücü 36 meqavat olacaq Ordubad Su Elektrik Stansiyasının tikinti işləri davam etdirilib, layihə gücü 14 meqavat olacaq Tivi Su Elektrik Stansiyası və 3,5 meqavat gücündə Qazançı Su Elektrik stansiyalarının texniki-iqtisadi əsaslandırılması və layihələri hazırlanıb. Culfa rayonu ərazisində külək elektrik stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılmasının lazımi işlər aparılıb. Bundan əlavə, Ordubad Su və Naxçıvan Modul elektrik stansiyaları arasında 75 kilometr uzunluğunda bir dövrəli 110 kilovoltluq və “Araz” SES və Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası arasında 50 kilometr uzunluğunda iki dövrəli 110 kilovoltluq elektrik xəttinin tikintisinin aparılmasının



zəruriliyi diqqət mərkəzində saxlanılıb. Babək rayonu ərazisində 35/10 kilovoltluq “Quşçuluq” yarımstansiyasının tam yenidən qurulması və Babək Rayon Elektrik Şəbəkəsinin yeni inzibati binasının tikintisi davam etdirilib.

Qeyd olunub ki, 2018-ci ilin altı ayında Dövlət Energetika Xidmətinin tabeliyində olan elektrik stansiyalarında 195 milyon 675 min 789 kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb. Alternativ və bərpaolunan enerji mənbələrində 105 milyon 216 min 700 kilovat-saat elektrik enerjisi istehsal edilərək sistemə ötürülüb ki, bu da bütün stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 53,77 faizini təşkil edir.

Bildirilib ki, 2018-ci ilin altı ayı ərzində tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması sahəsində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilib.

Vurğulanıb ki, muxtar respublikada bütün işlədicilərin istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatının aparmaq üçün elektron sayğaclar qoyulub. Naxçıvan şəhərində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri davam etdirilir. Son altı ay ərzində 710 ədəd belə sayğac quraşdırılaraq bu tip sayğacların sayı 21 min 475-ə çatdırılıb. Elektrik enerjisindən sayğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün mütəmadi reydlər keçirilir.

Sonra məruzə ilə bağlı çıxışlar dinlənilib.

* * *

“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilən yığıncağı cəmiyyətin direktoru Mahir Əliyev açaraq məruzə edib. Bildirib ki, 2018-ci ilin 6 ayında Culfa Lokomotiv Deposunda lokomotivlər 154 min 433 kilometr yürüş edib, 21 milyon 833 min ton yük lazım olan obyektə çatdırılıb. Plan-proqnoza uyğun 4,5 min ton yük vurulması və daşınması nəzərdə tutulduğu halda, faktiki olaraq 38 min 700 ton yük daşınıb. Bunun 20 min 520 tonu qum-çınqıl, 13 min 920 tonu daş məmulatı, 4 min 200 tonu travertin plitə, 60 tonu tikinti qumu olub ki, bu da nəzərdə tutulduğundan 8 dəfə artıqdır.

Qeyd olunub ki, hesabat dövründə proqnozda nəzərdə tutulan 72 min nəfər sərnişin əvəzinə Şərur-Culfa, Ordubad-Şərur istiqamətlərində faktiki 78 min 929 nəfər sərnişin daşınıb. Bu xidmətdən cəmiyyətin hesabına 19 min 606 manat vəsait daxil olub. Həmçinin bu dövrdə 84 min 930 kiloqram poçt-baqaj yükü daşınıb ki, bunun sayəsində cəmiyyətin hesabına 1274 manat vəsait daxil olub.



Bildirilib ki, muxtar respublikamızda aparılan tikinti-quruculuq işlərinin geniş vüsət alması ilə “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyindəki obyektlərin də siması xeyli dərəcədə dəyişib. Əksər idarə və yardımçı binalar ətraf ərazilərdə daxil olmaqla, müasir üslubda yenidən qurulub və həmin strukturlarda işçilər üçün hər cür əmək şəraiti yaradılıb. Bəhs olunan dövrdə dəmiryol təsərrüfatı 8 yeni sərnişin vaqonu ilə təmin olunub. Ordubad dəmir yolu sərnişin vağzalı binasının, Ordubad yol sahəsinin inzibati binasının və 4 saylı yol məntəqəsi binasının tikintisi, eləcə də Ordubad Stansiya İdarəetmə Mərkəzinin əsaslı təmiri başa çatdırılıb.

Qeyd olunub ki, kollektiv bundan sonra da işini günün tələbləri səviyyəsində qurmağa dəmiryol nəqliyyatında hərəkətin təhlükəsizliyinin təmin olunmasında və sərnişinlərin vaxtında mənzil başına çatdırılmasında bütün səy və bacarığını əsirgəməyəcək.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən kollegiya iclasında komitənin sədri Ramilə Seyidova hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, cari ilin 6 ayı ərzində muxtar respublikada insan hüquq və azadlıqlarının, xüsusilə uşaq və qadın hüquqlarının qorunmasını təmin etmək məqsədilə tədbirlər həyata keçirilib.***

Bildirilib ki, aztəminatlı ailənin üzvü olan 642 qadınla müvafiq söhbətlər aparılıb, 29-nun peşə kurslarına cəlb olunması üçün müvafiq məlumatları Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilib. 209 uzunömürlü ailə haqqında məlumatlar toplanılaraq müvafiq bazaya əlavə edilib.

Hesabat dövründə aidiyyəti orqanlarla birlikdə 7 aztəminatlı ailəyə baş çəkilib.

Məruzədə Naxçıvan Muxtar Respublikasında uşaq siyasətinin həyata keçirilməsinin fəaliyyət istiqamətlərinə uyğun olaraq muxtar respublikada 18 yaşadək sağlamlıq imkanları məhdud, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, övladlığa götürülmüş, xüsusi bacarıqları ilə seçilən, müxtəlif beynəlxalq və ölkədaxili yarışların qalib və mükafatçıları olan uşaqların uçotunun aparılması barədə də məlumat verilib.

Diqqətə çatdırılıb ki, muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət məqsədilə hesabat dövrü ərzində 10 uşaq müəssisəsində monitorinq aparılıb. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına cari ilin 6 ayı ərzində 2129 uşağın fərdi məlumatları daxil edilib. 43-ü məktəbəqədər yaşlı olmaqla, 430 sağlamlıq imkanları məhdud uşağın valideynləri ilə maarifləndirici söhbət aparılıb. Bu kateqoriyadan uşaqlarla bağlı muxtar respublikanın 74 məktəbəqədər, məktəb, məktəbdənkənar uşaq müəssisələrində monitorinq keçirilib.

Komitə sədri qeyd edib ki, hesabat dövrü ərzində kütləvi informasiya vasitələrində maarifləndirmə işi davam etdirilib. Komitəyə 104 müraciət, 2 sorğu daxil olub, onlara müvafiq qaydada baxılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

*Keçmişdən gələcəyə körpü rolunu oynayan və ulu babalarımızın bizə yadigar qoyduğu hər bir abidə xalqımızın qədim tarixinin və mədəniyyətinin mühüm göstəricisidir. İndiki nəsillər yaradılan və bizə gəlib çatan abidələrlə fəxr etməklə yanaşı, onu yaradanları da minnətdarlıqla xatırlayır və qürur duyurlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi:* ***"Biz tarixi keçmişimizə nəzər salarkən ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla fəxr edir və bunları yaradanları daim xatırlayırıq".***



# Naxçıvan abidələri və dövlətçilik tariximiz

Azərbaycan ərazisi bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edən arxeoloji abidələrlə son dərəcə zəngindir. Azərbaycan əhalisi hələ Qədim Daş Dövründən (Paleolit) başlayaraq yüksək mədəniyyət yaratmışdır. Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətlərinin yarandığı ərazi Naxçıvan olmuşdur.

Azərbaycan xalqı, eyni zamanda dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlardandır. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu, III minilliyin əvvəllərindən başlayaraq yaranmışdı. Qədim Azərbaycan dövlət qurumları Lullubi və Qutilər təkcə Azərbaycanın deyil, ümumiyyətlə, qədim Şərq dövlətçiliyinin tarixində də dərin iz qoymuşlar. Sonrakı dövrdə Azərbaycan torpaqlarında Skif şahlığı (iskit), Manna, Atropatena və Albaniya kimi dövlətlər mövcud olmuşdur. Ərəb xilafətinin tənəzzülündən sonra – IX əsrin ortalarından başlayaraq Qafqazda, habelə bütün Yaxın və Orta Şərqdə türk imperiyalarının rolu artdı. Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakülər, Çobanilər, Cəlairilər, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa türk sülalələrinin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın, həmçinin, bütövlükdə, Cənubi Qafqazın deyil, eyni zamanda bütün yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoydular.

Azərbaycanın ən qədim yaşayış və mədəniyyət mərkəzlərindən olan Naxçıvan diyarı xalqımızın tarixi keçmişini parlaq şəkildə əks etdirən qədim abidələr, yaşayış yerləri, mağaralar, möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələrlə zəngindir. Bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan diyarı əsrlərboyu Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi statusunu qoruyub saxlamışdır. Bu ərazidə mövcud olmuş dövlət qurumları milli dövlətçilik ənənələrinin formalaşması ilə yanaşı, həm də bölgənin inkişafına, müdafiə qabiliyyətinin güclənməsinə, inzibati-idarəçiliyin möhkəmlənməsinə mühüm töhfələr vermişdir.

Hər bir xalqın qədimliyini sübut edən onun mədəniyyətidir, tarixi abidələridir. Bu cəhətdən Naxçıvan ərazisi, xüsusilə diqqəti cəlb edir. Naxçıvan ərazisi antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir.

Hər bir xalqın mədəniyyətinin inkişafı onun dövlətçilik tarixi ilə bağlıdır. O xalq zəngin mədəniyyətə sahibdir ki, onun böyük dövlətçilik tarixi vardır. Azərbaycan beşminillik dövlətçilik tarixinə malik olan, müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycan xalqı zəngin və özünəməxsus mədəniyyət, o cümlədən qədim dövlətçilik tarixi yaratmışdır.

Dünyanın və dövlətlərin inkişaf tarixindən bu fakt da məlumdur ki, heç də bütün böyük dövlətlər böyük mədəniyyət sahibi deyillər, diqqəti cəlb edən abidələr yarada bilməmişlər. Bunları nəzərə alan ulu öndər Heydər Əliyev demişdir: ***"Dünyada böyük dövlətlər var, amma böyük abidələr yarada bilmirlər. Çünki abidələrin memarlıq qiyməti ilə bərabər, bizim üçün, bəlkə, daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir".***

Deməli, zəngin dövlətçilik ənənələri olan dövlətlər böyük abidələr yarada bilirlər. Yəni tarixi abidələr dövlətçilik tarixi ilə bilavasitə bağlıdır. Dövlətçilik ənənələrini davam etdirən dövlətlər tarixə çevriləcək abidələr yarada bilirlər. Ənənə və varislik, tarixi təcrübə yeni abidələrin yaradılmasına səbəb olur. Naxçıvan ərazisində mövcud olan, yəni günümüzədək gəlib çatan abidələr dövlətçilik tariximizlə birbaşa əlaqəlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Muxtar respublika ərazisindəki tarixi abidələr – qalalar, saraylar və türbələr dövlətçilik tariximizlə birbaşa bağlıdır. On ikinci əsrdə Azərbaycan Atabəylər dövləti paytaxt şəhər kimi Naxçıvanda mədəniyyətin, xüsusilə Əcəmi Naxçıvani sənətinin inkişafına təkan vermiş, dünya əhəmiyyətli abidələr yaradılmışdır..."***

Dünyanın ən qədim insan məskənlərindən biri olan Naxçıvan ərazisində qayaüstü təsvirlərin qeydə alındığı Gəmiqaya abidəsi Azərbaycanın ən qədim dövr incəsənətinin, mənəvi və maddi-mədəniyyətinin ensiklopediyasıdır. Naxçıvan ərazisində mövcud olan tarixi abidələrdən – Qazma mağarası, Kilit mağarası, Oğlanqala, Ovçular təpəsi, I Kültəpə, II Kültəpə, Qızılburun, Möminə xatın, Qarabağlar, Yusif Küseyir oğlu və Gülüstan türbələri, Qızqalası, Əlincə qalası, Naxçıvanqala və başqa yüzlərlə abidə keçmişimizi bu günə daşıyan maddi və milli sərvətimizdir.

Böyük abidələr, tarix və mədəniyyət abidələri zəngin dövlətçiliyi ilə fərqlənən dövlətlərin olduğu dövrdə yaradılır. Azərbaycan Atabəylər – Eldənizlər dövlətinin mövcud olduğu dövrdə olduğu kimi. XII əsrin 40-70-ci illərində paytaxtı Naxçıvan şəhəri olan Azərbaycan Atabəyləri dövləti dövründə bir sıra tarixi abidələr yaradılmışdı. Naxçıvan dövrün mənbələrində ("Əcaib əd-dünya") belə təqdim edilir: *"Naxçıvan Azərbaycanda böyük və gur şəhərdir, yüksək yerdədir, çox möhkəmdir. Orada çoxlu saray, köşk və eyvanlar tikilib, şəhərin yaxınlığında daşdan qala ucaldılıb, qalada isə mədrəsə və məscid tikiblər. Deyirlər ki, yer üzərində bundan abad şəhər yoxdur".*



Azərbaycan Atabəyləri dövründə Naxçıvan şəhərində və ətrafında onlarla tarixi abidə yaradılmışdır ki, bunların bir qismi günümüzədək gəlib çatmış, bir qismi isə təbii qüvvələrin nəticəsində uçub dağılmışdır: Yusif Küseyir oğlu, Möminə xatın və Gülüstan türbələri, Qoşaminarə, Cümə məscidi, Darülmülk (Eldənizlər sarayı) və başqaları. Bu abidələrin hər biri memarlıq quruluşu və möhtəşəmliyi ilə diqqəti cəlb etmişdir. Fransız səyyahı Tavernye Naxçıvan abidələrinə heyranlığını gizlətməmiş və Naxçıvan Cümə məscidini Asiyada ən möhtəşəm məscidlərdən biri kimi qiymətləndirmişdir. Möminə xatın türbəsi isə monumental abidədir. Bu türbə orta əsr Azərbaycan memarlığının şah əsəridir. Akademik M.V.Alpatov Möminə xatın türbəsi haqqında yazır: *"Belə yüksək memarlıq forması duyğusuna, kompozisiyanın belə kamilliyinə və mükəmməl işlənməsinə bu zamanlar Orta Avropada təsadüf etmək mümkün deyildir".* Ona görə mümkün deyildir ki, XII əsrdə Orta Avropada dövlətçilik ənənələri olan, dövlətçiliyi zəngin olan Azərbaycan Atabəylər dövlətinə müqabil olan dövlətə təsadüf etmək mümkün deyildi.



Qarabağlar Türbə Kompleksinin bərpadan sonra istifadəyə verilməsi tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Abidələr o vaxt tarixin predmetinə çevrilirlər ki, onlar bərpa və tədqiq olunsunlar. Bu gün biz abidələri təkcə mədəni irsimiz kimi yox, həm də dövlətçilik tariximizin bir hissəsi kimi öyrənməliyik".***

Müstəqillik illərində muxtar respublika ərazisində 70-dən çox tarix və mədəniyyət abidəsi əsaslı surətdə bərpa edilmiş, onlara ikinci həyat verilmişdir. Belə abidələrdən biri də Qarabağlar Türbə Kompleksidir. Bu kompleksin tarixini öyrənməklə məlum olur ki, Qarabağlar şəhər kimi XII əsrdən məlumdur. Sonrakı illərdə şəhər Azərbaycanın mühüm ictimai-iqtisadi, siyasi mərkəzlərindən biri olmuşdur. Onun Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üzərində yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi və mədəni həyat xeyli tərəqqi edib. Belə memarlıq abidələrinin olması Qarabağların böyük şəhər olduğunu sübut edir. Qarabağların şəhər kimi formalaşması və inkişaf dövrü isə Hülakülər dövləti dövründə olmuşdur. Qarabağlar Türbə Kompleksi xalqımızın maddi-mədəniyyət abidələri arasında tarixi mövqeyi, dünya əhəmiyyətli abidə olması, dövlətçiliyin nə qədər zəngin olmasını göstərir. Azərbaycan xatirə memarlığının mütərəqqi ənənələrini yaşadan bu abidə memarlıq quruluşuna və oxşar cəhətlərinə görə Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, görkəmli memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsi olmaqla, bugünkü və gələcək nəsillərə təqdim edilən dövlətçilik irsimiz və mədəni sərvətimizdir.

Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələri dövlət qayğısı ilə əhatə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən 1212 abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Həmin sərəncam muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin tədqiqində, bununla yanaşı, həm də dövlətçilik tariximizin öyrənilməsində yeni mərhələnin başlanğıcını qoymuşdur. Bu baxımdan qeyd etmək yerinə düşər ki, tarixçilərimiz abidələri yalnız mədəni irsimiz kimi deyil, həm də onları dövlətçilik tariximizin bir sahəsi kimi öyrənməli və tədqiq etməlidirlər.

Muxtar respublika ərazisində yerləşən, tarix və mədəniyyət abidələri qorunur, bərpa və tədqiq edilir. Abidələrin öyrənilməsi və təbliği sahəsində də əhəmiyyətli işlər görülür. "Naxçıvan Abidələri Ensiklopediyası"nın nəşr edilməsi yalnız Naxçıvan deyil, bütövlükdə, Azərbaycanın mədəniyyət tarixində mühüm hadisədir. Son illər çap olunan "Əlincəqala", "Gülüstan türbəsi", "Qarabağlar Türbə Kompleksi", "Naxçıvan hamamları", "Naxçıvan türbələri", "Naxçıvan imamzadələri", "Naxçıvan buzxanaları" və başqa çoxsaylı kitablar da bu sahədə görülən işlərin əhəmiyyətini və ardıcıllığını göstərir.

Hər bir xalqın qədimliyi, ululuğu, dövlətçiliyi onun abidələrində yaşayır. Abidələr xalqı, xalq isə abidələri yaşadır, dövlətçiliyin zənginliyini göstərir. Ona görə də tariximizin əks-sədası olan abidələrimizi öyrənmək, qorumaq və təbliğ etmək hər kəsin vətəndaşlıq amalına çevrilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar".***

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***



# *“Yaşıl iqtisadiyyat”ın* inkişafı muxtar respublikada mühüm istiqamət kimi müəyyənləşdirilib

***Bu gün artıq beynəlxalq miqyasda prioritet sayılan iqlim dəyişikliklərinin qarşısının alınmasında daha az enerjidən istifadə edilməsi və onun daha təmiz mənbələrdən əldə olunması qlobal məqsəd kimi müəyyənləşdirilib. Elə “yaşıl iqtisadiyyat” anlayışı da insan rifahını və sosial ədaləti təmin edən, eyni zamanda ətraf mühit risklərini kəskin şəkildə azaldan iqtisadiyyat kimi qəbul edilir. Bu termin ilk dəfə 1989-cu ildə Böyük Britaniya hökuməti üçün hazırlanmış hesabatda ətraf mühit mütəxəssisləri tərəfindən istifadə olunub. Sonrakı illərdə isə “yaşıl iqtisadiyyat” BMT-nin Ətraf Mühit Proqramında davamlı inkişafın təmin olunması elementi kimi çıxış edərək ekoloji sivilizasiyaya keçidin vacib şərti kimi qəbul edilib.***





Hazırda Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası sürətli inkişaf yolundadır. Bu inkişafda insan potensialından və innovativ texnologiyalardan səmərəli istifadə əsas predmet kimi çıxış edir. İndi beynəlxalq təşkilatlar tərəfindən dərc olunan hesabatlarda əsas göstərici kimi hər hansı bir ölkədə vahid enerjinin istifadəsi nəticəsində sənayedə, kənd təsərrüfatında və yaxud xidmət sahələrində yaranmış ümumi daxili məhsulun dəyəri mühüm göstərici kimi qəbul edilir. Burada isə alternativ və bərpaolunan enerji mənbələrindən istifadə ön plana çıxır. Çünki belə enerji mənbələrindən istifadə ekologiyanın qorunmasına, ətraf mühitin mühafizəsinə, eyni zamanda yeni texnologiyaların tətbiqinə geniş imkanlar açır. Diqqət etsək, görərik ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş milli inkişaf strategiyasının uğurla davam etdirilməsinin nəticəsində son illərdə muxtar respublikada “yaşıl iqtisadiyyat”ın inkişafına xeyli həcmdə sərmayələr qoyulub.

Hamımıza məlumdur ki, ötən əsrin sonlarında muxtar respublikanın üzləşdiyi ən böyük çətinliklərdən biri enerji sahəsində yaranmış böhran idi. Bu acınacaqlı vəziyyət qədim diyarda onsuz da az olan yaşıl örtüyün azalmasına səbəb olmuş, ekoloji böhran daha da dərinlərə nüfuz etmişdi. Lakin ötən dövr ərzində həyata keçirilən tədbirlərin nəticəsində muxtar respublikada yaşıllıqların həcmi 12 dəfədən çox artmış, Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir.

Qeyd edək ki, ölkəmizdə hələ 2004-cü ildən qəbul olunmuş “Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı”na əsasən enerji təminatı sahəsində resursəvəzləyici potensial əldə olunması strategiyası həyata keçirilir. Həmin proqramda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, ilk növbədə, muxtar respublikada orta, kiçik, mikro su elektrik stansiyalarının tikilməsi daha məqsədəuyğundur. Bu işin təşviqi kimi bərpaolunan enerji mənbələrinin hasilatı üçün texnoloji avadanlıqların istehsalı Naxçıvan Muxtar Respublikasında qurulmalıdır. Ötən dövrdə bu sahədə ciddi addımlar atılmış, müxtəlif həcmli enerji istehsal edən obyektlər istifadəyə verilmişdir. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir. Bundan əlavə, muxtar respublikanın əlverişli iqlim şəraiti, ekoloji cəhətdən təmiz, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə nəzərə alınaraq Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, Şərur rayonunda 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları, Babək rayonunda 22 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Əgər əvvəllər muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, hazırda bu müəssisələrin sayı 8-ə, ümumi gücü 239,4 meqavata çatdırılmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il muxtar respublikada 431 milyon 691 min kilovat-saat elektrik enerjisi istehsal olunmuşdur ki, bu da 2006-cı ildəki göstəricidən 93,2 faiz çoxdur. 2017-ci ildə muxtar respublikada elektrik enerjisinin 231 milyon 432 min kilovat-saatı və ya 53,6 faizi istilik elektrik stansiyalarında, 168 milyon 946 min kilovat-saatı və ya 39,1 faizi su elektrik stansiyalarında, 31 milyon 313 min kilovat-saatı və ya 7,3 faizi isə Günəş Elektrik Stansiyasında istehsal edilmişdir. Alternativ və bərpaolunan elektrik stansiyalarında elektrik enerjisi istehsalının həcmi ümumi istehsalın 46,4 faizini təşkil etmişdir. Ölkə üzrə Günəş Elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 78,3 faizi muxtar respublikada istehsal olunmuşdur. Alternativ və bərpaolunan enerji növləri istehsalının daha da artırılması məqsədilə hazırda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Bununla yanaşı, Culfa rayonu ərazisində külək elektrik stansiyasının yaradılması ilə bağlı yeni layihənin həyata keçirilməsi enerji sektorunda çoxşaxəli enerji mənbələrindən maksimum yararlanmaq imkanlarını ortaya qoyur. Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi istiqamətində dövlətimizin həyata keçirdiyi məqsədyönlü işlər nəticəsində artıq regionda külək, istilik, həm də yerli hidroenerji potensialına əsaslanan etibarlı enerji infrastrukturu yaradılmışdır. Muxtar respublikada enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***“Elektrik enerjisi ilə problem yoxdur. Hesab edirəm, gün gələcək ki, Naxçıvan bütün enerji tələbatını bərpaolunan enerji növləri hesabına təmin edəcək”.***

Alternativ enerji mənbələrindən artıq dünyanın bir çox inkişaf etmiş ölkələrində istifadə olunur. Məsələn, Almaniyada işlədilən enerjinin 17 faizə qədəri külək və Günəşdən alınır. Naxçıvan Muxtar Respublikasında isə alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin ümumi enerji istehsalının 60 faizini təşkil edir. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club” tərəfindən hazırlanan Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün illik investisiya reytinqində mühüm amillərdən biri kimi dəyərləndirilərək Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq lider mövqeyə çıxmasına səbəb olan mühüm faktorlardandır. Muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlər ekoloji enerji istehsalına bundan sonra da öz töhfəsini verəcək.

“Yaşıl iqtisadiyyat”ın inkişafında təbii resurslardan səmərəli istifadə ilə yanaşı, ətraf mühitin mühafizəsi, eyni zamanda ekologiyanın zənginləşdirilməsi də mühüm istiqamətlərdən biri kimi qəbul edilir. Məlumdur ki, ətraf mühitin qorunmasında xüsusi mühafizə olunan təbiət əraziləri böyük rol oynayır. Hazırda muxtar respublika ərazisində 1 milli park, 1 qoruq, 3 yasaqlıq fəaliyyət göstərir ki, bu da ümumi ərazilərimizin 27 faizindən çoxunu təşkil etməklə beynəlxalq normaları üstələyir. Bununla yanaşı, muxtar respublika təbiətinin yaşıllaşdırılması məqsədilə həyata keçirilən tədbirlər (hər il, orta hesabla 500 hektar ərazidə yaşıllaşdırma tədbirləri aparılır) təbiətə münasibətin Naxçıvan nümunəsini ortaya qoyur.

Ümumilikdə götürsək, “yaşıl iqtisadiyyat” çoxməfhumlu anlayışdır. İndiyədək muxtar respublikada müxtəlif su mənbələrinin təmir və bərpası, şoranlaşmış torpaqların münbitliyinin artırılması, kanalizasiya və içməli su xətlərinin çəkilməsi, yük və sərnişin daşımalarında yeni texnologiyaların tətbiqi, məişət tullantılarının zərərsizləşdirilməsi və görülmüş digər işlər iqtisadiyyatın “yaşıllaşdırılması” istiqamətində həyata keçirilən tədbirlərdəndir.

*Bəli, bu gün iqtisadiyyat təkcə makroiqtisadi göstəricilərin səviyyəsi ilə ölçülmür. Müasir iqtisadi inkişaf insanın şüuru, intellekti, mədəniyyəti, məntiqi, ətraf mühitə münasibəti üzərində qurulur. Davamlı inkişafın təməlində dayanan “yaşıl iqtisadiyyat” isə insanların bütün növ mal və xidmətlərə olan ehtiyaclarının davamlı ödənilməsinin sağlam ekosistemlər sayəsində mümkünlüyünü göstərir.*

**Səbuhi HƏSƏNOV**

# Dini dəyərlərimizin təbliği diqqət mərkəzində saxlanılır

***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin kollegiya iclasında beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub. İclası agentliyin direktoru Vüqar Babayev açaraq məruzə ilə çıxış edib.***



Qeyd olunub ki, 2018-ci ilin Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə əlaqədar agentlik tərəfindən bir sıra tədbirlər həyata keçirilib. Belə ki “İslam dinində Ramazan və Qurban bayramları” mövzusunda elmi forum, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə “İslam dinində ailə dəyərləri” mövzusunda konfrans təşkil olunub. Bu tədbirlər çərçivəsində “İslamda müdrik kəlamlar” adlı kitab da nəşr edilib. Həmçinin Naxçıvan Muxtar Respublikasında dini bayramlar, ayinlər və yas mərasimlərinin milli-mənəvi dəyərlərimizə və ənənələrimizə uyğun şəkildə keçirilməsi məqsədilə bir sıra tədbirlər görülüb.

Bildirilib ki, rayon və kəndlərdə fəaliyyət göstərən məscidlərin təmizliyinə ciddi diqqət göstərilir. Məscidlərdə İslam dininin əsaslarına uyğun olaraq ibadətlər təşkil edilir, tolerantlıq prinsipləri ciddi şəkildə qorunur. Məscidlərdə birgə ibadət etmə təmin olunub, bölgələrdə maarifləndirmə işləri aparılıb. Din xadimləri tərəfindən namazların və eləcə də cümə namazlarının təşkili diqqətdə saxlanılır.

Vurğulanıb ki, xarici ölkələrdəki müqəddəs yerlərə ziyarətlərin təşkili ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilib. Belə ki, zəvvar qruplarının təşkili müvafiq qanunvericiliyin tələblərinə uyğun şəkildə lisenziyalaşdırılmış formada və dini qurumlarla iş üzrə idarə ilə razılıq əsasında bir neçə şəxs tərəfindən aparılır.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Agentlik dövlətin din sahəsində mövcud konsepsiyasını əsas tutaraq din-dövlət münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin icrası, dini icmalar və cəmiyyətdə milli-mənəvi dəyərlərimizin təbliği və maarifləndirmə işlərinin təşkili istiqamətlərində fəaliyyət göstərir.

Qeyd olunub ki, ötən dövr ərzində muxtar respublika ərazisində 72 məscid tikilib, 95 məscid, 23 pir yenidən qurulub və ya bərpa olunub. Hazırda muxtar respublika ərazisində 209 məscid fəaliyyət göstərir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

# İşçilərin sosial-iqtisadi və hüquqi mənafeləri qorunur



Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən növbəti sessiyada qarşıya qoyulan vəzifələrin müzakirəsi ilə bağlı Həmkarlar İttifaqları Şurasında keçirilən kollegiya iclasını şuranın sədri Sucaxan Novruzov açaraq məruzə edib. Bildirib ki, hesabat dövründə şura öz işini işçilərin sosial-iqtisadi və hüquqi mənafelərinin qorunması istiqamətində qurub, işçilərlə işəgötürənlər arasında kollektiv əmək müqavilələrinin bağlanmasına nəzarəti gücləndirib, müqavilə vaxtı başa çatan təşkilatlarda kollektiv müqavilənin yenilənməsinə nail olunub. 2018-ci ilin ötən dövrü ərzində bağlanan kollektiv müqavilələrin sayı 675-ə çatıb.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən bu il şuranın xətti ilə muxtar respublikanın ümumtəhsil məktəbləri şagirdlərinin, Naxçıvan Dövlət Universiteti tələbələrinin və sağlamlıq imkanları məhdud uşaqların Şahbuz rayonunun Ağbulaq İstirahət Mərkəzində istirahəti təmin olunub. Əvvəlcədən müəyyənləşdirilən cədvələ əsasən muxtar respublikada fəaliyyət göstərən digər kollektivlərin də “Yay məktəbi” istirahəti bu il sentyabrın 12-dək davam etdiriləcək.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Gənclərin hərbi hissələrə qəbulu davam edir



Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 may tarixli “Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Sərəncamına uyğun olaraq xidmətə yeni çağırılmış gənclərin hərbi hissələrə qəbulu davam edir.

Bütün mərhələlərdən keçdikdən sonra hərbi xidmətə yararlılığı təsdiq edilən gənclərimiz paltar və digər şəxsi əşyalarla tam təmin edilir. Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsini təmin edən Əlahiddə Ümumqoşun Orduda yaradılan nümunəvi xidməti şəraitin nəticəsidir ki, xidmətə yeni başlayan əsgərlərimiz heç bir çətinliklə üzləşmirlər. Hərtərəfli təminata malik hərbi hissələrdə xidmət edəcək gənclərin ən çətin döyüş tapşırıqlarını yerinə yetirəcək peşəkar əsgərlər kimi hazırlanması üçün planauyğun dərs və praktik məşğələlər keçilir.

# Zəngin tariximiz, mədəniyyətimizlə tanışlıq



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrinin zabitlərinin muzeylərə ekskursiyaları davam edir.

Zabitlərimiz növbəti dəfə Naxçıvan Dövlət Tarix Muzeyini, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini və Xatirə Muzeyini, eləcə də muxtar respublikanın rayonlarında yerləşən tarix-diyarşünaslıq muzeylərini ziyarət ediblər. Muzeylərdə zəngin tariximizi, mədəniyyətimizi özündə əks etdirən eksponatlar və görkəmli şəxsiyyətlərimiz haqqında zabitlərə ətraflı məlumat verilib.

**Nəriman NƏCƏFOV**

# Yol hərəkəti qaydaları ilə bağlı yeniliklər

***2018-ci il 29 iyun tarixdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarda, “Yol hərəkəti haqqında” və “Dövlət rüsumu haqqında” qanunlara bir sıra əlavə və dəyişikliklər olunub. 2018-ci il 17 iyul tarixdən qüvvəyə minən dəyişikliklər piyadalar üçün də əhəmiyyət kəsb edir. Belə ki, əvvəllər yolun hərəkət hissəsini müəyyən olunmayan yerlərdən keçən piyadalar İnzibati Xətalar Məcəlləsinin yalnız 338.2-ci maddəsinə görə məsuliyyətə cəlb olunaraq 20 manat miqdarında cərimə edilirdilər. Artıq yeni qaydalara əsasən, 338.2 maddəsi ilə yanaşı, 338.2-1 maddəsinə görə hərəkət sürəti 80 kilometr/saat və daha artıq müəyyən edilmiş yollarda yolun hərəkət hissəsini piyadaların yolu keçməsi üçün müəyyən edilmiş yerlərdən kənar keçməyə görə piyadalar 40 manat miqdarında cərimə olunurlar.***




Nəqliyyat vasitələrinin texniki baxışı ilə bağlı da mühüm dəyişikliklər olub. Belə ki, yeni qaydalara əsasən artıq nəqliyyat vasitəsini texniki baxışdan keçirmədən idarə edən şəxs məsuliyyətə cəlb ediləcəkdir. Yəni əvvəllər nəqliyyat vasitələrini “Yol hərəkəti haqqında” Qanun ilə müəyyən edilmiş qaydada və müddətdə texniki baxışdan keçirmədən idarə etməyə görə İnzibati Xətalar Məcəlləsinin 339.1 maddəsinə əsasən fiziki şəxslər 50, vəzifəli şəxslər 100, hüquqi şəxslər isə 300 manat miqdarında cərimə olunurdularsa, bundan sonra həmin məcəllənin 339.1-1 maddəsinə görə nəqliyyat vasitəsini bu qanun ilə müəyyən edilmiş qaydada və müddətdə texniki baxışdan keçirmədən idarə edən şəxs 50 manat miqdarında cərimə olunur. Həmçinin şəxs nəqliyyat vasitəsini dövlət qeydiyyatından və texniki baxışdan keçirmədən idarə etməyə görə məsuliyyətə cəlb olunduqda əvvəllər həmin şəxsə 10 gün möhlət verilirdisə, yeni qaydalara əsasən həmin möhlət artırılaraq 20 gün müəyyən olunub. Eyni zamanda foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələr ilə nəqliyyat vasitəsini texniki baxışdan keçirmədən idarə edən sürücülər aşkarlanaraq barəsində inzibati tənbeh vermə haqqında elektron qərar çıxarılaraq məsuliyyətə cəlb olunacaqlar.

“Yol hərəkəti haqqında” Qanunun 30-cu maddəsində, yəni nəqliyyat vasitələrinin texniki vəziyyəti və onlara texniki baxışın keçirilməsi qaydalarına dəyişikliklər edilib. Əgər əvvəlki qanunvericilikdə nəqliyyat vasitələrinə texniki baxış talonunun verilməsi nəzərdə tutulurdusa, artıq yeni qaydalara əsasən nəqliyyat vasitələrinə Dövlət Yol Polisinin mərkəzi informasiya sistemi ilə nəqliyyat vasitəsinin texniki baxışdan keçməsi barədə elektron talon tərtib olunaraq dərhal elektron qaydada müvafiq icra hakimiyyəti orqanının informasiya sisteminə göndərilir.

“Dövlət rüsumu haqqında” Qanuna da dəyişikliklər olunub. 2018-ci il 16 iyul tarixdən qüvvəyə minən qaydalara görə nəqliyyat vasitələrinin idarə edilməsi üçün sürücülük vəsiqələrinin verilməsi və dəyişdirilməsi zamanı dövlət rüsumu 18 manatdan 25 manata, eyni zamanda nəqliyyat vasitələrinə qeydiyyat şəhadətnaməsinin verilməsi 17 manatdan 25 manata qaldırılıb.

Sürücülük vəsiqələri ilə bağlı da əhəmiyyətli yeniliklər var. Belə ki “Yol hərəkəti haqqında” Qanunun 34-cü maddəsində sürücülük vəsiqələrində “A1”, “A”, “B”, “C”, “D”, “BE”, “CE” və “DE” kateqoriyaları nəzərdə tutulmuşdursa, dəyişikliklərdən sonra artıq yeni nəsil sürücülük vəsiqələrində “A1”, “A”, “B1”, “B”, “C1”, “C”, “D1”, “D”, “BE”, “C1E”, “CE”, “D1E” və “DE” kateqoriyaları nəzərdə tutulub. Yəni Azərbaycanın qoşulduğu Vyana Konvensiyasının tələblərinə əsasən əlavə olaraq “B1”, “C1” və “D1” altkateqoriyaları üzrə sürücülər müvafiq nəqliyyat vasitələrini idarə edə biləcəklər. Yeni nəsil sürücülük vəsiqələri aşağıdakı qaydada müəyyənləşib:

– “B1” kateqoriyası – kvadrisiklləri, yəni yüksüz vəziyyətdə kütləsi 400 kiloqramdan çox olmayan və maksimal effektiv gücü 15 kilovatdan çox olmayan mühərrikli, 4 təkərli nəqliyyat vasitələrini;

– “C1” kateqoriyası – “D” və “D1” altkateqoriyasına aid edilməyən, icazə verilən maksimal kütləsi 3500 kiloqramdan artıq, lakin 7500 kiloqramdan çox olmayan avtomobilləri, habelə qoşqusunun icazə verilən maksimal kütləsi 750 kiloqramdan artıq olmayan “C1” altkateqoriyasından olan avtomobilləri;

– “D1” kateqoriyası – sərnişin daşınması üçün nəzərdə tutulan və oturacaq yerlərinin sayı sürücü oturacağından əlavə 8-dən artıq, lakin 16-dan çox olmayan avtomobilləri, habelə qoşqusunun icazə verilən maksimal kütləsi 750 kiloqramdan artıq olmayan “D1” altkateqoriyasından olan avtomobilləri;

– “C1E” – qoşqusunun icazə verilən maksimal kütləsi 750 kiloqramdan artıq, lakin avtomobilin yüksüz kütləsindən çox olmayan və bütövlükdə, belə tərkibin icazə verilən maksimal kütləsi 12000 kiloqramdan çox olmayan “C1” altkateqoriyasından olan avtomobilləri;

– “D1E” – sərnişin daşınması üçün nəzərdə tutulmayan, qoşqusunun icazə verilən maksimal kütləsi 750 kiloqramdan artıq, lakin avtomobilin yüksüz kütləsindən çox olmayan və bütövlükdə, belə tərkibin icazə verilən maksimal kütləsi 12000 kiloqramdan çox olmayan “D1” altkateqoriyasından olan avtomobilləri idarə etmək üçün nəzərdə tutulub.

“A”, “B”, “C”, “D”, “CE” və “DE” kateqoriyalı sürücülük vəsiqəsinə sahib olan sürücülər “A1”, “B1”, “C1”, “D1”, “C1E” və “D1E” kateqoriyalarına daxil olan nəqliyyat vasitələrini idarə edə bilərlər.

Yeni nəsil sürücülük vəsiqələrinin verilməsinə 2019-cu ilin yanvar ayının 1-dən etibarən başlanılacaqdır.

**Ayaz İSMAYILOV**

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Təbliğat üzrə baş inspektoru, polis baş leytenantı***

## Üzgüçülük üzrə şəhər birinciliyi

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin Üzgüçülük Mərkəzində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə qızlar arasında üzgüçülük üzrə şəhər birinciliyi keçirilib.***



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Olimpiya-İdman Kompleksinin birgə təşkil etdiyi birincilikdə 3 yaş qrupunda 30 idmançı üzgüçülüyün sərbəst üsulu üzrə 25 metr məsafədə mübarizə aparıblar.

Yarışın yekununa əsasən 2002-2004-cü illər təvəllüdlü idmançılar arasında Nərmin Həsənova, 2005-2006-cı illər təvəllüdlü idmançılar arasında Gülan Əhmədova və 2007-2008-ci illər təvəllüdlü idmançılar arasında isə İnci Allahverdiyeva qalib adını qazanıblar.

Sonda hər yaş qrupunda yer tutan idmançılar diplomlarla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***Dünən Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında “Uşaq əhalisi arasında cərrahi, travmatoloji, ortopedik və endokrinoloji xəstəliklərə müasir yanaşma” mövzusunda keçirilən elmi-praktik seminarı baş həkim Rəhim Rəhimov açıb.***

## Elmi-praktik seminar

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı İbrahim Ağayev uşaqlar arasında xəstəliklərin vaxtında aşkar edilməsi məqsədilə icbari tibbi müayinələrin aparılmasının, aşkar edilmiş xəstə uşaqların dispanserizasiyaya cəlb edilməsinin və müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsinin əhəmiyyətindən danışıb.

Sonra Poliklinika şöbəsinin həkim-cərrahı Şəhla İmanova “Naxçıvan Muxtar Respublikasında uşaq əhalisi arasında rast gəlinən cərrahi xəstəliklər və onların intensivliyi”, ortoped-cərrah Elvin Əsədov “Uşaqlarda aşağı ətraf problemləri”, həkim-endokrinoloq Zümrüd Məmmədova “Naxçıvan Muxtar Respublikasında uşaq əhalisi arasında rast gəlinən endokrinoloji xəstəliklərə müasir baxış” mövzularında məruzələr ediblər.

Məruzələr videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Yay fəsli uşaqlar arasında bəzi mövsümi xəstəliklərin yayılması dövrü hesab edilir. Xüsusən bəzi çimərliklərdə çimmək, Günəş şüaları altında uzun müddət qalmaq, qidalanma rejiminə riayət etməmək uşaqların bədən bioritmini pozur. Nəticədə, mövsümi xəstəliklərə yoluxma halları baş verir. Bəs övladlarımızı bu xəstəliklərdən necə qoruya bilərik? Bu barədə Yoluxucu Xəstəliklər Mərkəzinin Uşaq şöbəsinin müdiri, həkim-pediatr infeksionist Abbas Əliyevlə həmsöhbət olduq.***

*Həkim məsləhəti*

# Uşaqlarımızı mövsümi xəstəliklərdən qoruyaq

Yay mövsümündə uşaqların sağlamlığına nəzarətin daha da artırılmasını vacib sayan həkim qeyd etdi ki, uşaqlar çimərliyə gedərkən valideyn nəzarəti altında olmalı, valideyn onun neçə saat suda və qumda qalmasına diqqət yetirməlidir. Bu fəsildə uşaqlar arasında allergiya, mədə-bağırsaq pozuntuları və günvurma ilə bağlı xəstəliklərə daha çox rast gəlinir.

Həkimin sözlərinə görə, digər aylara nisbətən yay aylarında mədə-bağırsaq xəstəliklərinin aktivləşməsinə daha çox təsadüf olunur. Buna səbəb isə yayda ərzaqların daha tez xarab olması, qarışıq qidaların qəbulunun uşaq orqanizmində bakteriyaların çoxalması və inkişafı üçün münbit şərait yaratmasıdır. Mikroblu qidaların və başda su olmaqla, digər içkilərin ağız yolu ilə qəbulu ürəkbulanma, qusma, ishal, yüksək hərarət və dehidratasiya (su itkisi) ilə müşahidə oluna bilən qida zəhərlənməsi və qastroenterit kimi sağlamlıqla bağlı əsas narahatlıqların ortaya çıxmasına səbəb ola bilər.

Kəskin bağırsaq infeksiyaları simptomlarından danışan Abbas həkim bildirdi ki, xəstəlik əzginlik, anoreksiya, hipertermiya, ishal, ağır hallarda infeksion toksikoz sindromu ilə müşahidə olunur. Xəstəliyin ağırlıq dərəcəsi uşağın yaşından, müxtəlif yanaşı patologiyalardan (diatezlər, hipotrofiya) və infeksiyanın etioloji amilindən asılıdır. Uşaqlarda kəskin bağırsaq infeksiyalarının müalicəsi zamanı gözlənilməli əsas prinsiplər düzgün pəhriz, fermentoterapiya və simptomatik müalicənin kombinasiyasıdır.

Müalicəvi pəhriz bağırsaq peristaltikasının və həzmin normallaşması, müsbət kliniki dinamikanın əldə olunmasında mühüm rol oynayır. Sıyıqlar yalnız suda hazırlanır, təkcə bişmiş halda alma yeyilir, kəsmikdən başqa digər süd məhsulları qida rasionundan çıxarılır, uşağa süd qarışıqları əvəzinə müalicəvi hidrolizə olunmuş qarışıqlar məsləhət görülür. Çoxlu miqdarda maye qəbulu susuzlaşmanın kəskinləşməsinin qarşısını alır. Ona görə də duz məhlulları ağır hallarda infusion məhlulların təyin olunması orqanizmdə pozulmuş maye balansını, maddələr mübadiləsini bərpa edir, baş verən ağırlaşmaların qarşısını alır.

Həkimin sözlərinə görə, bağırsaq infeksiyaları və diareyaların profilaktikası üçün sanitar-gigiyena qaydalarına ciddi riayət edilməlidir. Uşaq tərbiyə müəssisələrində yeməklərin bişirilməsi və oyuncaqların təmizliyinə sanitar nəzarət, həmçinin məktəbəqədər və məktəbyaşlı uşaqlara şəxsi gigiyena qaydalarının öyrədilməsi zəruridir. Onlarda orqanizm həssas olduğu üçün müxtəlif meyvələrin həddən artıq qəbulu və sərinləşdirici içkilərin aramsız olaraq içilməsi müxtəlif problemlərə səbəb olur. Buna görə də qidaları sərin vəziyyətdə saxlamaq və Günəş şüalarından qorumaq məsləhətdir. Yeməklərin və içkilərin hazırlanma, əlverişli şərtlərdə saxlanma və servis mərhələlərində əsas gigiyena qaydalarına diqqət edilməsi, yuxarıda qeyd olunan riskli qidaların qəbulunun azaldılması, açıq havada satılan qidalardan istifadə edilməməsi, durğun halda olan su mənbələrindən su içilməməsi də infeksiyalardan qorunmaqda effektiv yollardandır.

Ağartı məhsulları mədə-bağırsaq sisteminin öz funksiyasını bərpa etməsində xüsusi əhəmiyyətə malikdir. Ona görə bu tip qidaların qəbuluna yay aylarında daha çox yer vermək lazımdır. Əsasən də yağlı yeməklərin qəbulundan sonra ağartı məhsulları mədəyə yüngüllük gətirir ki, bu da həzmin yaxşılaşmasına səbəb olur. Amma gigiyena qaydalarına əməl edilmədən hazırlanan süd və süd məhsulları, kremli və yumurtalı qidalar, vakkuumlu paketi açıldıqdan sonra qısa müddətdə yeyilib bitirilməyən salyami, sosiska, sucuq, pendir kimi qidalar və əlverişli şərtlərdə saxlanılmayan qırmızı ət, ağ ət (toyuq), dəniz məhsulları isti hava şəraitində qısa müddətdə xarab olaraq mikroorqanizmlərin daha asan törəməsinə yol açır. Həmçinin meyvə və tərəvəzlər də yaxşı yuyulmadıqda riskli ola bilər. Belə ki, mikroblu qida və suların ağız yolu ilə daha çox qəbul edilməsi, kondisionerdən istifadə, müxtəlif bölgələrə edilən səyahətlər səbəbilə bəzi yoluxucu xəstəliklər daha çox müşahidə olunur. Su və qidalardan keçən infeksiyalardan qorunmağın ən düzgün yolu əl gigiyenasıdır. Əllərin tez-tez və düzgün qaydada yuyulmasına mütləq diqqət etmək lazımdır.

Yay aylarında çoxlarının sərinləmək, istirahət etmək üçün üz tutduğu məkanlardan biri də su hövzələridir. Axar sulardan fərqli olaraq durğun sularda, xüsusilə də süni yaradılan çarhovuzlarda infeksiyalaşma halı daha çox müşahidə olunur. Buna görə də su hövzələrində infeksiyadan qorunmaq üçün mütləq sabun və su ilə duş qəbul edilməsi, nəm çimərlik geyiminin dəyişdirilməsi, əl və ayaq barmaq aralarının nəmli qalmamasına xüsusilə diqqət edilməlidir. Hovuz və dəniz suyunun udulmamasına diqqət edilməlidir. Dəridə sıyrıq və kəsik yaralar varsa, üzəndən sonra təmiz su və sabunla yuyunmaq lazımdır.

Uşaqların immunitetinin gücləndirilməsi üçün yay ən ideal dövrdür. Qışda uşaqların yoluxucu xəstəliklərə daha dözümlü olmasını istəyirsinizsə, mütləq yay fəslində çimərlik prosedurları qəbul edilməlidir. Mövsümi meyvələrlə bol qidalanmaq lazımdır, çünki onların tərkibində vitaminlər çox olur. Uşağın iştahasızlığından şikayətlənən valideynlər mütəmadi olaraq onları gəzintiyə çıxarmalıdır. O, xəstə deyilsə, iştahasızlığın səbəbi hərəkətsizlikdir. Ən əsası uşaqların yuxu rejiminə diqqət yetirilməlidir. Tətil olduğundan uşaqlar istədikləri vaxt yuxudan oyana bilərlər. Çünki hər bir uşağın öz bədən bioritmi var.

**✍ Ramiyyə ƏKBƏROVA**

*İtmişdir*

Naxçıvan şəhəri, H.Rəhmanov küçəsi, döngə 2, ev 5-də yaşamış Əsədov Kazım Məhəmməd oğlunun adına olan 552 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 532